**MUJDE CU MƏHBUB**
*BDU-nun Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının qiyabi aspirantı*

# ƏL-FƏRABININ METAFIZIKASI HAQQINDA

Metafizika termini mənası "təbiətdən sonra", başqa sözlə "təbiətdən sonra gələn" mənasını verir və qeyd etmək lazımdır ki, öz başlanğıcını Aristotelin əsərlərindən götürür. Aristotelin əsərlərinin külliyatında onun fəlsəfi fikirləri təbiət elmlərinə aid hissədən sonra gəldiyi üçün şərti olaraq "metafizika-təbiətdən sonra gələn" kimi işarələnmişdir. Zaman keçdikcə yunan dilindəki, *meta- ("sonra")* prefiksi *"üstündə; yüksəkdə; hüduddan kənar"* mənalarını verməyə başlamışdır {8}.

Əbu Nəsr Məhəmməd Əl-Fərabi (870-950) İslam dünyasının peripatetik filosoflarından ən böyüyü, Arestoteldən sonra ikinci müəllim kimi məşhur olmuşdur. O fəlsəfəni, astronomiyanı, riyaziyyatı və musiqini dərindən öyrənmişdir {1}. Bağdaddakı müəllimləri içərisində ərəb mənşəli xristianlar da olmuşdur. Əksər müsəlman filosofları kimi Əl-Fərabi də bir sıra ölkələri gəzmişdir. Maarif və mədəniyyət mərkəzləinə baş çəkən böyük filosof zəmanəsinin məşhur mütəfəkkirləri ilə görüşüb tanış olmuşdur. Ömrünün son illərini o, Hələbdə Sultan Seyfətdövlün sarayında keçirmişdir. Farabinin fəlsəfəsində də digər opтa əsr müsəlman filosoflarının əsərlərində olduğu kimi Platonun və Aristotelin təlimlərini yaxşılaşdırmaq cəhdləri özünü göstərir. Əl-Fərabi məntiqdə, etikada, metafizikada Aristotelin baxışlarını müdafiə etmiş, sosial problemlərin həllində isə Platonun ideyalarına üstünlük vermişdir. Qeyd etmək lazımdır ki, Əl-Fərabinin fəlsəfəsi barədə qısa və dəqiq bir hesabatın hazırlanması bəzi səbəblərə görə çətin işdir. Birinci səbəb budur ki, onun əsərləri yalnız son üç onillikdə toplanmağa və toplum şəklinə salınmışdır. Hələ də onun əsərləri və baxışları barədə araşdırmalar aparmaq lazımdır. İkinci səbəb bundan ibarətdir ki, Əl-Fərabi öz fəlsəfəsini bütün varlıqların və reallıqların şərhinin açarı kimi təqdim etdiyinə görə onun fəlsəfəsində həyat, mərifət və dünyanın öyrənilməsi simvolik tarixi bir layihə formasında seçilir. İndiyə qədər Əl-Fərabinin baxışları və nəzəriyyələri tam bütünlüklə araşdırılmamışdır {4}.

Əl-Fərabinin təsəvvürlərinə görə dünya özünün ilk mənbəyi olan birinci varlığa malikdir (Əl-Mövcud Əl-Əvvəl) {6; səh. 639}. Birinci varlıq qeyri-maddi, mütləq mənada mükəmməllik, fəaliyyət göstərən əbədi varlıqdır. O, heç nəyə ehtiyac hiss etmir. Bu zəruri varlıq "mümkün" və yaxud "potensial" varlıqdan fərqlənir, çünki onların mahiyyətində özlərinin mövcudluğunun zərurəti yaranmır. Zəruri varlıq hansısa mövcudluq üçün öz mövcudluğunda heç bir səbəbə malik deyildir. Əl-Fərabiyə görə varlığın zirvəsində özü-özünü dərk edən Allah durur.

Əl-Fərabi fəlsəfəsində mənəvi dəyərlərə aid görüşləri (metafizika) mühüm yer tutur, çünki bu görüşləri kəlam və təsəvvüflə (sufiliklə) yaxından bağlıdır.

Gerçəkliyin zirvəsində zəruri varlıq (vacibül-vücud) olan Allah durur. O, birdir və hər şeydir, bütün mövcudatın mayası O-dur. Hər bir şey ya mümkündür, ya da vacibdir. Mümkün olan dünya vacib (zəruri) dünyanın törəməsidir. Ona möhtacdır, vacib varlığın hər bir şeyə ehtiyacı yoxdur, o dəyişməzdir, kamal, saf əql, saf xeyirdir, mükəmməllik mücəssəməsidir. Onu dərk etmək mümkün deyil. O, haqqdır, hakimdir. Ləzzətin ən yaxşısı əql ləzzətidir, bunun isə ən üstünü Tanrını yada salmaq. Ona pənah gətirməkdir.

O səbəblərdən – materiya, hərəkət, forma və məqsədlərdən azaddır. Burada Aristotelin substansiyanın 4 prinsipi nəzərdə tutulur: 1. Forma – eydos, morfe və yaxud mahiyyət; 2. Materiya (nədənsə olan) və yaxud substrat; 3. Hərəkətin mənbəyi və yaxud (Yaradan) başlanğıc; 4. Məqsəd; əksinə zəruri varlıq (Yaradan) özü "mövcudluğun başlanğıcı"dır.

Başqa sözlə desək, bütün şeylərin mövcudluğu ondan əmələ gəlir, çünki mövcud olan şeylər Onun mövcudluğunun möhürünü özündə daşıyırlar və yalnız bu şəkildə onlar mövcud ola bilir. Birinci varlıq ikinci səbəblərin mövcudluğunu yaradır.

Əl-Fərabi maşşaidir, o özünün mənəvi görüşlərində Aristotel fəlsəfəsini İslam dünyagörüşü ilə uzlaşdırmağa çalışır. Lakin bu işdə Əl-Fərabinin özünəməxsus fəlsəfi görüşlərinin dörd cəhəti nəzəri cəlb edir.

1. Aristotelə görə Allah aləmin mərkəzindədir və materiyaya forma verir. Əl-Fərabidə isə Allah ilə materiyanın vəhdəti ön plandadır, maddə öz zəruriliyini Allahdan alır.

2. Aristoteldə Allah materiyaya mexaniki təsir göstərir. O, ilk təkanvericidir. Əl-Fərabidə isə mənəvi və təbii izahat verilir, ruhun təbiətə təsiri hərəkətin mənbəyi sayılır.

3. Aristotelə görə Allah təbiətə mexaniki və kortəbii təsir edir, özü də yaxşı hadisələrə nüfuz edir. Əl-Fərabiyə görə isə Allah qlobal proseslərin və aləmlərin problemləri ilə məşğul olur, təbiətin xırda hadisələri ilə məşğul olmur, bu mələklərə və peyğəmbərlərə aiddir.

4. Aristotelin fikrincə, ilk hərəkətverici fəal əql və ya Allahdır. Fəal əql (formalar forması) və Allah eyniləşdirilir. Əl-Fərabidə isə ümumi ümumi ruh Allahdır, emanasiya ilə şeyləri yaradan məxluqdur. Deməli, Əl-Fərabidə – Allahla gerçəklik arasında köməkçi qüvvələr mövcuddur (mələklər, göy cisimlərinin ruhları, insan əqli, peyğəmbərlər), Aristoteldə isə bunlar yoxdur, Əl-Fərabi ruhun başqa bədənlərə keçməsi haqqında kəlamçı baxışlarını rədd edir, axirət dünyasına və insanların ölümündən sonra diriləcəyinə inanmır. Ruhu bədənin ağası sayır, bədənin ölümündən sonra ruh ilahi aləmə qayıdır. İnsan iradəsi əvvəlki nəsillərin iradəsi ilə müəyyənləşdirilir. İnsan öz mənəviyyatını hissi həzzlərin azaldılması hesabına zənginləşdirməlidir.

Əl-Fərabinin fikrincə bütün dinlər mərkəzə doğru cəhd edirlər. Bu mərkəz isə Allahın özüdür. İnsanları ayıran onların etiqad etdikləri dinlərin müxtəlifliyi deyil, həqiqəti başa düşməmələridir. Bu həqiqət ondan ibarətdir ki, bütün insanlar varlığın müxtəlif səviyyələrində və mənəvi tərəqqinin müxtəlif mərhələlərində olmaqlarına baxmayaraq, onların hamısı İlahi iradənin yaratdıqlarıdır.

Əl-Fərabinin birinci səbəb barədə əsaslandırmalarının az bir hissəsinə nəzər salmaq faydalı olar. Çünki metafizika və mərifətşünaslığın hansı şəkildə və formada Əl-Fərabi təfəkküründə bir araya gəldiyini öyrənmək üçün çox maraqlı və cəlbedici ola bilər. O, "Pəy prinsipləri" kitabında yazır: "Birinci səbəbin üzvləri yoxdur. Onun üzvlərə bölünməsini hətta fərz belə etmək olmaz. Onun maddədən təşkil olunmasını təsəvvür etmək qeyri mümkündür. Birinci səbəbin məna və anlamını izah etmək mümkünsüdür. Bunun üçün də onun üzv və hissələrini dəlil olaraq göstərmək olmaz. Əgər belə olarsa maddəni təşkil edən üzv və hissələr onun varlığının səbəbləri ola bilər. Qeyd etmək laszımdır ki, üzvlər və hissələr hər hansı bir əşyanın və ya cismin mövcudluğunun təqdimatçısıdır və onun izahını verir {10; səh.134-139}. Maddə və cismin varlıq səbəbləri onun onun ayrılmaz tərkib hissəsidir. Lakin birinci səbəb barədə bunları söyləmək olmaz. Çünki birinci səbəb və onun vücudu yəqinliklə demık olar ki, səbəbsizdir". İlahiyyat və dinşünaslıq sahəsində Farabinin birinci səbəb barədə düşüncələrini araşdıran metodun gündəmə gətirilməsində mıəqsəd bundan ibarətdir ki, o (Allah) adi və klassik proseslər, bölümlər və rasional məqsədlər vasitəsilə tanına bilməz. Bununla da insan təfəkkürü və zəkası birbaşa olaraq Allahı tanımağa və ona varmağa qadir deyildir. Bundan başqa biz burada əlavə ünsürün olmasına varırıq ki, ondan rasional analiz və təhlil varlıqşünaslığı əks etdirir. Hər hansı bir cismi təqdim edən və onun izahını verən əşya və ifadələr real həyatda onun maddəsini təşkil edıən üzvlər sayıla biləcək xarici amillərdirlər. Bu inteqrasiya reallığa uyğundur. Əl-Fərabidən yuxarıda gətirilən sitat-

latr yalnız və yalnız Aristotelin qeyd etdiyi süni və maddi səbəblərin nümunəsidir. Əl-Fərabi digər kitabında Purfirinin növlərini önə çəkir. O yazır: "Birinci səbəb öz varlığına əsasən hər bir şeydən fərqlənir və seçilir. Digər valıqlar ona məxsus olan xüsuyyətlərə malik ola bilməzlər. Çünki ilk səbəbə və digər varlıqlar arasında nisbətən müştərək xüsusiyyətlər olduğu təqdirdə, onlar arasında yəqin ki, fərqlər olmaz. Elə buna görə də sadaladığımız bu iki fərqli varlıq arasında oxşarlıq olarsa aydındır ki, fərqli cəhətlər ortaqlıqlar anlamında olmayacaq. Bununla da fərqlilik hər iki varlığın mövcud olmasını təsdiq edir və ortaqlıq digər hissəyə aid olan mövzudur ki, ən azı dialektdə hər iki varlıq iki hissədən təşkil olunub və hər bir hissə onun mövcudluğunu təsdiq edn səbəbdir. Belə olduğu halda ilk səbəb birinci olaraq qalır və Əl-Fərabi burada sübut edir ki, cins və fəsil başqa sözlə hər hansısa varlığı təqdim edən xassələr ilk səbəbə aid edilə bilməz. Onun dediklərindən tam aydın görünür ki, üzvlər kimsənin hər hansı bir əşya barədə danışmasına imkan verməklə yanaşı onun varlığını müəyyən edən amilləri üzə çıxarır {4}.

Əl-Fərabinin düşüncələrinə görə cisım və təfəkkürün ötürülməsi üzrə ümumi prinsiplər cins və növlərə bölünərək analiz edilə bilər. Əgər birinci səbəb (tayı bərabəri olmayan yeganə varlıq) istisna olunmaqla, yerdə qalan kainat cismləri və varlıqları azalma və çoxalma xüsusiyyətinə malikdirsə, bu əsas səciyyə olaraq varlıqların tənəzzül prosesində özünün göstərən amildir {6; səh. 700-710}. Zəkalar, səma cismləri və ulduzlar, canlanma və sübut üçün ilkin maddəyə ehtiyac duymurlar. Lakin bununla belə azalan sayılırlar. Başqa sözlə onların varlığı daha mükəmməl bir varlıqdan meydana gəlib ki, bu da birinci səbəbdir. Əlavə olaraq bunu qeyd etmək lazımdır ki, onlar zəkanın işində artım və sayı göstərirlər. Çünki onlar yalnız özlərini zəka adlandırmır, bəlkə özlərindən əlavə müəyyən səbəblərə görə onlara verilən zəkanı da təsəvvür edərək dərk edirlər. Bununla belə zəkalar insan zəkasından daha kamildirlər. Səmavi planetlərin hər biri əqli və nəfsidirlər. Onların zəkası və ya daha dəqir desək onlara hakim olan təfəkkür hiss olunan deyil. Lakin onların nəfsləri hiss olunandır. Planetlərin nəfsləri və ya simaları yalnız zəkanın gücü və istedlarına malikdirlər ki, onlardan daha yüksəkdə olan təbəqəyə, ondan daha incə olan təbəqəyə təqlid və qibtə etmək planetlərin hər birinin hərəkətə düşməsinə gətirib çıxaran amillərdəndir. Əl-Fərabiyə görə Allah özü-özünü dərk edəndə gerçək gerçək Aləm əmələ gəlmişdir; əvvəlcə ruh, sonra əql və mələkləp aləmi yaranır. Ən axırda Ayaltı Aləm yaradılmış olur. Əl-Fərabi bu aləmi maddi xarakterli bir şey sayır, amma onun təməlində ruh və zəkanın durduğunu söyləyir. Aydan aşağıda olan aləmə hakim olan aktiv zəka mərhələsində bir proses cərəyan edir ki, bu yer kürəsini firlanmağa məcbur edir. Planetdə daha uca zəkalar və səmavi amillərin özləri davamçı qüvvəni istehsal etdiyi bir halda, bu qüvvə zəka, nəfs və cism sayəsində hərəkətə gəlir. Aydan aşağıdakı aləmə hakim olan aktiv zəka, yalnız aşağı aləmdə olan varlıqların düşüncə və ağıllarını öz təsiri altına alır. Digər tərəfdən isə aydan aşağıda olan aləmdə maddə və forma səmavi planetlərin fərqli hərəkəti vasitəsilə istehsal olunur. (Şərqdən doğan ulduzlar və səma cismləri o anların yaranması şəklini müəyyən edir). Aydan aşağı aləm səviyyəsində varlıq və yoxluq aləmində qarışıqlıq və tərkib hər növ məxluqu formalaşdırır. Forma və maddə varlığın ən aşağı şəkli və üsulu olmaqla yanaşı biri-birinə ehtiyac duyurlar. Çünki nə maddə formasız, nədə ki, forma maddəsiz ola bilməz. Bunlar iksi bir yerdə maddi və fiziki cismi təşkil edirlər. Maddə hər hansı bir cismə çevrilmə qüvvəsinə və istedadına malikdir {13; səh. 113}. (Misal üçün qeyd etmək olar ki, mum müxtəlif formaları ala bilir). Forma, cismani cövhərin həmin əşyanın belfeli olmasına səbəb olur. Farabinin baxışlarına görə, ən sadə və adi halətdə forma - 4 element (torpaq, hava , alov, su), bir növü təşkil edir. Çünki torpaq halında olması mümkün olan maddə eyni zamanda suda ola bilər. "Məxlut və tərkib" cismani cövhərlər silsiləsinin elementləri olan minerallar, bitkilər və heyvan aləmi, eləcə də bəşəriyyəti yaradır {11}.

Əl-Fərabi idrakda üç əsas qaynağın olduğunu söyləyir: birincisi bilavasitə və doğru bilik duyğulardan və əqldən doğur. İkincisi nəzəriyyə yürütmək yolu ilə vasitəli və əql ilə əldə edilən bilik. Üçüncüsü - müşahidə ən mühüm bilik əldə etmək vasitəsidir.

Müşahidə iki cürdür: 1. Xarici aləmi duyğu və əqllə müşahidə etmək; 2. Simvolik müşahidə (riyaziyyat və mənəvi). Əsl bilik iki müşahidə vasitəsilə əldə edilir.

Əl-Fərabiyə görə əql də iki cürdür: 1. İsbat-sübutetmə vasitəsi olan əql yürütmə; 2. İzah vasitəsi olan əql yürütmə.

Əl-Fərabinin «İhsayel-Ulüm» adlı əsəri tamamilə elmlərin təsnifatına həsr edilmişdir. O, elmləri beş sinfə bölür: 1. Dil elmi və hissələri; 2. Məntiq elmi və hissələri. 3. dəqiq elmlər (say, riyaziyyat, həndəsə, astronomiya, müsiqi və s.). 4. Təbiət elmi və ilahiyyat elmi. 5. Mədəni elmlər və hissələri (hüquq və kəlam). Bu təsnifat təcrübi əhəmiyyəti olan təsnifatdır. Nəzəri təsnifatı Əl-Fərabi iki hissədən ibarət bilir: 1. Sırf əqli elmlər (mədəni və məntiqi elmlər). 2. Aristotelsayağı təsnifat – təbiət (fizika) və mədəni elmlər (metafizika).

Əl-Fərabiyə görə fəlsəfə təkcəni və ümumini (aləmi) öyrənən və şərh edən bir elmdir. Təfəkkür prosesi fəlsəfi fikrin həm şərti, həm də nəticəsidir. Təbiət elmləri və humanitar elmlər geometriya və məntiqin nəzarəti altında inkişaf etməlidirlər. Özü də fəlsəfə və humanitar elmlərlə məşğul olanların məhdud ixtisas çərçivəsindən çıxıb bütün varlığın yaradıcısı olan «İlk səbəbdən» (Allahdan) bəhs etməyi vacib sayılmalıdır.

### *ƏDƏBIYYAT:*

1- Farabi mədəniyyət filosofudur. Rza Davəri. Saqi Nəşriyyatı. Tehran.
2- Farabi İslam fəlsəfəsinin yaradıcısıdır. Rza Davəri. Elm və Mədəniyyət Nəşriyyatı. Tehran.
3- Farabinin siyasi fəlsəfəsi. Möhsün Mühacirniya. Qum.
4- "Siyasətülmədinə" kitabı. Əbunasir Farabi. Tərcümə edən Həsən Məlikşahi. Soruş Nəşriyyatı. Tehran.
5- Misal üçün: İbni Xəlkanın yazdığına görə Farabi yetmiş dil bilmişdir. Bax: İbn Xəlkan "Vəfiyyatül-əyan" II cild, səh. 113.
6- İbrahim Mədkur Farabi: İslamda fəlsəfə tarixi. Müəllif M.M.Şərif. Tərcüməçi: Əli Məhəmməd Kardan, I cild, (Tehran: Daneşqahi nəşriyyat mərkəzi 1362), səh. 639.
7- İbn Xəlkan "Vəfiyyatül-əyan" səh. 100 və 100-dən sonra.
8- R.Walzer. Al-farabi on the Perfect State^ Abu Nasr al Farabi Mabadi' Ara' Ahl Al – Madina Al – Fadila, ["Ara"], a rivised text with introd., tr., and Comm., (Oxford: Clarendon Prss, 1985), p.2.
9- Hnari Korben İslam fəlsəfəsi tarixi. Tərcüməçi Əsədulla Mübəşşiri (Tehran, Əmr-Kəbir nəşriyyatı 1361), səh. 214.
10- Əl Qifti. "Tarixül-hükəmal səh. 279 və İbn Əbi Üseybəə "Eyvənül Ənibba" səh. 134-139.
11- M.Mahdi. "Alfarabi's Imperfect State":Journal of American Oriental Society, Vol. 110, No.4, 1990, p.694.
12- Korben "İslam Fəlsəfəsi tarixi" səh. 215.
13- İbn Xəlkan "Vəfiyyatül – Əyan" II cild səh. 191.
Nemət. Şiə filosofları. Səh. 417-421

fars dilində:

1- رضا داوری. انتشارات طرح نو. چاپ اول. صفحه 87. تاریخ چاپ 1374 .تهارن
2- بوستان کتاب. چاپ سال 1386. صفحه 58. شهرستان قم.
3- ابونصر فارابی. ترجمه حسن ملک شاهی.انتشارات سروش. صفحه 65. چاپ اول. سال 1376 . تهاران
4- تهارن از منابع قدیمی. بدون تاریخ صفحه 42
5- اندیشی سیاسی فارابی. ترجمه محسن محاجرنیا از بوستان کتاب. صفحه 110. سال نشر 1386
6- انتقال علوم یونانی به عالم اسلام. نوشته دولیس. ترجمه احمد آرا. انتشارات دانشگاه تهران. صفحه 48
7- افلاطون فی اسلام عبدالرحمان بدوی. ناشر م. ت. دانشگاه تهران. سال نشر 1353. صفحه 32.

8- فارابی موسس فلسفه اسلامی. رضا داوری. انجمن فلسفه ایران. 2536. صفحه 95
9- تاریخ قلسفه در اسلام. جلد اول. تهران دانشگاه نوشته شریف م.م. شریف سال 1362. صفحه 63
10- مطالعات تطبیقی اسلامی شیخ سعید. ترجمه مصطفی داماد موسس انتشارات خوارزمی . سال 1369. صفحه 24.
11- احصاء العلوم فارابی. چاپ دوم. ترجمه حسین غدیو جم. انتشارات علی فرهنگی. سال 1364. صفحه 18
12- اندیشه های اهل مدینه فاضله فارابی. نوشته دکتر سید جعفر سجادی. سازمان چاپ و انتشارات. سال 1379. صفحه 82
13- تاریخ فلسفه در اسلام. نوشته مدکور ابراهیم. ترجمه علی محمد کاردان. سال 1362. صفحه 69
14- اصول و مبادی فلسفه سیاسی فارابی. نوشته فرناز نادرزاده کرمانی. انتشارات دانشگاه الزهراء. سال 1376. صفحه 110.

İngilis dilində:
R.Walzer. Al-farabi on the Perfect State^ Abu Nasr al Farabi Mabadi' Ara' Ahl Al – Madina Al – Fadila, ["Ara"], a rivised text with introd., tr., and Comm., (Oxford: Clarendon Prss, 1985), p.2.

**МАХБУБ МУЖДЕ ДЖУ**

**РАЗМЫШЛЕНИЯ ФАРАБИ О МЕТАФИЗИКЕ**

Абу Наср Мухаммед ибн Мухаммед ибн Тархан ибн Узлаг аль-Фараби ат-Турки (873—950) — крупнейший представитель восточного аристотелизма. Идеи Фараби о бытие близки идеям аристотелизма и неоплатоническому учению об эманации. Бытие согласно его учению состоит из шести ступеней-начал. Эти начала являются одновременно основами для всего существующего и связаны отношениями причины и следствия. Всё существующее и все начала по своему характеру разделены на два типа. К первому типу относятся вещи, из сущности которых не вытекает с необходимостью их существование. Вещи этого типа называются «возможно сущими». Для вещей второго типа, называемых «необходимо сущими», характерно то, что из их сущности необходимо вытекает их существование. Всё, что относится к «возможно сущему» для своего бытия нуждается в определенной причине, то есть становится «необходимо-сущее благодаря другому». Такой причиной является «необходимо-сущее само по себе» или божество, которое производит в вечности мир. Таким образом в качестве первой причины у Фараби выступает бог, которому присуща единственность. Остальным причинам присуща множественность. Из первой причины образуются вторые причины — небесные тела. Третьей причиной является своеобразный космический разум, который заботится о «разумном животном» и стремится довести его до совершенства. Остальные причины связаны с реальными земными предметами.

**MAHBUB MOJDE CU**

**REFLECTIONS FARABI METAPHYSICS**

Abu Nasr Muhammad ibn Muhammad ibn Tarkhan Uzlag ibn al-Farabi (873-950) - the largest representative of the eastern Aristotelian. Farabi's ideas about being close to the ideas of Aristotelian and Neoplatonic doctrine of emanation. Being in accordance with his teachings, is composed of six stages-starting. These principles are also the basis for all existing and relate the causes and consequences. All existing and all starting in nature are divided into two types. The first type includes things from the essence of which does not follow from the necessity of their existence. Things of this type are called "may veritable". For the things of the second type, called "must veritable", characterized by the fact that because of their nature must follow their existence. All that relates to "possibly being" for their existence needs to be some reason that is becoming "must-existent thanks to another". This cause is a "must-being itself" or deity, which produces eternal peace. Thus, as the first reason for Farabi serves God, which is inherent uniqueness. The other reason is inherent plurality. From the first reason are the second reason - the heavenly bodies. The third reason is a kind of cosmic intelligence, who cares about the "rational animal" and strives to bring it to perfection. Other reasons relate with real earth objects.

***Rəyçilər: fəl.e.n.H.Q.Məmmədov, f.e.d.N.M.Mikayılov.***
***BDU-nun Humanitar fakültələr üzrə fəlsəfə kafedrasının 20 fevral 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***